# Uşağın qəlbi



**Herman Hesse**

*əvvəli ötən sayda*

Nifrət etdiyim kilsə skamyaları ara-sıra səs edirdi. Onlar darıxdırıcı görünən sarı rənglə boyanmışdı və həmişə bir azca da paltarlarıma yapışırdı. Bəzən də milçəklər qırmızı güllər, yaşıl ulduzlar çəkilmiş pəncərədə vızıldayırdı. Və birdən xütbə bitir. Mən keşişin dar pilləkənlərlə gedib gözdən itməyini görmək üçün önə əyildim. Hamı yüksək səslə oxuyurdu və sonra ayağa qalxıb çıxışa doğru yönəldilər, sədəqə qabına beş qəpiklər ataraq çölə çıxırdılar. Dəmir cingiltisi buradakı təntənəni pozurdu. Mən də qaba qəpik atıb insan axınına qoşuldum.

İndi bazar gününün ən əla vaxtı idi - kilsə ilə nahar arasındakı ən sevimli iki saat. Mən öz borcumu yerinə yetirdim. Uzun zaman oturaqlı qaldığımdan indi hərəkət etmək, oynamaq, gəzmək, kitab oxumaq istəyirdim. Və mən nahara qədər tamamilə azadam. Nahara isə mütləq dadlı bir yemək olacaqdı. Çox şən əhval-ruhiyyədə evə yollandım. Dünyada hər şey öz qaydasındaydı, yaşamaq gözəl idi. Mən sakitcə dəhlizdən keçərək pilləkənlərlə yuxarıya doğru qalxdım.



Otağıma günəş şəfəq saçdı. Mən qutudakı tırtıllarımı yoxladım. Bir neçə pup tapdım. Dünən onlarla maraqlanası halda deyildim. Gülləri də suladım.

Qapı açıldı.

Mən bunu on an hiss etmədim. Bir az keçmiş bu sakitlik mənə qəribə gəldi. Qarşımda atam dayanmışdı. Onun bənizi solğun, yorğun və kefsiz görünürdü. Salamlaşmamız boğazımı qurutdu. Mən gördüm. O, bilir! O, gəlib! Məhkəmə başladı! Vəziyyət yaxşı deyildi, heç nəyin cəzası çəkilməmiş, heç nə unudulmamışdı! Günəş tutuldu və bazar səhərinin gözəl əhvalı pozuldu!

Təəccüblü nəzərlərlə atama baxırdım. Mən ona nifrət edirdim. Niyə axı o, dünən gəlmədi? İndi mən heç nəyə hazır deyildim, hətta necə peşman olduğumu bildirməyə, günahımı etiraf etməyə də hazır deyildim. Və həm də ki, öz otağında əncir saxlamaq axı onun nəyinə gərək idi?

O, mənim kitab dolabıma yaxınlaşaraq əlini kitabların arxasına uzadıb, bir neçə əncir götürdü. Onsuz da ondan çox deyildi. O, mənə lal və əzabverici, sual dolu gözlərlə baxdı. Ağrı və tərslik məni boğurdu.

- Nə olub? - soruşdum.

- Bu əncirlər səndə hardandır? - sakitcə sual verdi. Onun bu cür sakit danışığını heç sevmirdim.

Mən danışmağa, yalan söyləməyə başladım. Ağlıma gəldi ki, atam pulu soruşacaq. Tez dedim ki, pulu dostumla bir yerdə tutduğumuz daxıldan götürmüşəm. Hər ikimiz əlimizdə qalan xırda pulları ora atırdıq. Yeri gəlmişkən, daxılımız da bax budur. Başında deşik açdığım qutunu atama göstərdim. Daxılda cəmi on pfenniq vardı, ona görə ki, biz dünən əncir almışıdıq.

Atam soyuqqanlıqla məni dinləyirdi.

- Əncir neçəyədir? - o sakitcə soruşdu.

- 1,60 mark.

- Hardan almısan?

- Şirniyyatçıdan.

- Hansı şirniyyatçıdan?

- Xaagerdən.

Söhbətə fasilə verdik. Mən hələ də daxılımı əlimdə möhkəm sıxıb saxlamışdım. Mənim bütün bədənim soyumuş və sanki donmuşdu.

Və bu an o şiddətli bir səslə məndən soruşdu:

- Düzünü deyirsən? Yalan danışmırsan ki?

Mən tez cavab verdim. Hə, əlbəttə ki düz danışıram. Hətta dostum Veber də orada idi. Pulların çoxu onun, mənim payıma düşən hissə isə lap az idi.

Atam dedi:

- Papağını başına qoy gedək şirniyyatçı Xaagerin yanına. O bilir sənin yalan və ya doğru danışdığını.

Mən gülümsəmək istədim. İndi mənim qəlbim də tam donmuşdu. Mən öndə gedərək dəhlizdə göy papağımı başıma qoydum. Atam da papağını götürüb şüşəli qapını açdı.

- Bir dəqiqə! Mən indi gəlirəm. Ayaqyoluna girib qapını kilidlədim. Sanki burada təhlükədən uzaq idim. Kaş ki indicə öləydim!

Mən bir-iki dəqiqə gözlədim. Xeyri yox idi. Ölüm gəlmək bilmirdi. Möhkəm olmaq lazım idi. Qapını açıb çölə çıxdım. Biz pilləkənlərlə aşağı doğru düşdük.

Çölə çıxarkən ağlıma yaxşı bir fikir gəldi. Və mən tez-tələsik dedim.

- Axı bazar günüdür, Xaagerin dükanı bağlıdır.

Qəlbimdə iki saniyəlik ümid yaranmışdı ki, atam söylədi:

- Onda biz evinə gedərik. Getdik.

Biz yola düşdük. Papağımı düzəltdim. Bir əlimi cibimə qoyub atamın yanınca, sanki heç nə olmamış kimi addımlamağa başladım. Yol boyu gülümsəməyə çalışırdım ki, heç kim "həbsdə" olduğumu anlamasın. Ürəyim sıxılsa da rahat nəfəs almağa çalışırdım. Özümü günahsız kimi aparırdım. Süni və axmaq görünsəm də, üzümdən təbəssümü əskik etmirdim. Boğazımda, içimdə sanki şeytan vardı və məni boğurdu. Biz mehmanxananın, nal vuranın, arabaçının evinin, dəmiryol körpüsünün yanından keçdik. Bu körpünün o biri üzündə mən dünən Veberlə dalaşırdım. Gözümün yanındakı sıyrıntının yeri hələ də sızıldayırdı! Aman Allah! Aman Allah!

Qamətimi dik tutaraq önə addımlayırdım. Adlerin anbarının yanından, vağzal olan küçədən keçdik. Hələ dünən bu küçə necə də xoş və gözəl görünürdü. Heç nə düşünmək lazım deyil. Addımlayaq!

Demək olar ki, Xaagerin evinə yaxınlaşmışdıq. Bu vaxt ərzində mən orada başıma gələcəkləri artıq bir neçə dəfə təsəvvürümə gətirmişdim. Hər şey indi bax belə olacaq. Buna tab gətirə bilmədim. Dayandım.

- Nə oldu? Niyə dayandın? - atam soruşdu.

- Mən ora getməyəcəm, - sakitcə dedim.

O, mənə yuxarıdan aşağı baxdı. Axı o hər şeyi lap əvvəldən də bilirdi. Niyə mən onun qarşısında tamaşa qurmalı idim? Axı bunun heç bir mənası yox idi.

- Məgər sən ənciri Xaagerdən almamışdın? - o soruşdu. Mən başımı yellədim.

- Hə, belə de! Bu halda evə qayıda bilərik, sakitcə atam söylədi.

O, özünü çox nəzakətli aparırdı. Küçədə camaat içində mənə rəhmi gəlirdi. Küçəmizdə isə adam çox idi. Demək olar ki, hamısı da atamla salamlaşırdı. Nə mənasız komediyadır. Bu cür əzab çəkməyim çox yersizdir. Göstərdiyi qayğıya görə mən ona heç də minnətdar deyildim.

Axı o, hər şeydən xəbərdar idi! O, məni tutulmuş siçanı öldürməzdən əvvəl oynan pişik kimi oynatdı. Atam mənim nəfəsimi aramla, yavş-yavaş kəsməkdənsə, haqlı olduğunu sakitcə gözümə soxmaqdansa, kaş heç bir sorğu-sualsız başıma bir çubuq vuraydı. Məncə bu cür ədalətli və alicənab atadansa, kobud ata daha yaxşıdır. Jurnala əks olunmuş öz uşaqlarını döyən hirsli və ya sərxoş atalara bəraət qazandırmaq olmazdı. Lakin döyülmək əzabına dözüb, heç olmasa o cür ataya nifrət etmək olurdu. Mənim atamlasa bu cür mümkün deyildi. O, çox alicənab, eyibsiz, nöqsansız bir adam idi. Həmişə haqlı olurdu. Onun yanında mən sanki kiçik və yazıq görünürdüm.

Dişlərimi bir-birinə sıxıb ondan öndə addımlayıb, evə keçib otağıma girdim. O, hələ də çox sakit idi. Daha doğrusu özünü bu cür göstərirdi. Əslində necə hirsli olduğunu yaxşı bilirdim. Axır ki o dilləndi:

- Mən sadəcə bilmək istəyirəm ki, bu komediya nəyə lazım idi? Bunu mənə izah edə bilərsən? Axı sənin o gözəl nağılının yalan olduğunu anlamışdım. Niyə bu cür dərrakəsizsən? Sən məni bunlara inanacaq qədər axmaq olduğumu düşünürdün?

Mən udqundum. Kaş ki daha kəsəydi! Bu nağılı niyə danışdığımı heç özüm də bilmirdim! Heç niyə günahımı boynuma alıb, üzr istəmədiyimi də, heç ənciri niyə oğurladığımı da bilmirdim. Bəyəm mən bunu düşünüb-daşınıb, bilə-bilə, hansısa bir səbəbdən etmişdim? Bəyəm buna görə peşman olmamışdım? Ondan çox əzab çəkmirdim?

O, özünü ələ alsa da, çox gərgin bir vəziyyətdə gözləyirdi. Bir anlıq hər şey mənə aydın oldu. Lakin mən o zaman fikrimi indiki kimi rahat ifadə edə bilməzdim. Mən ona görə oğurluq etdim ki, atamın otağına təsəlliyçün gəlmişdim. Lakin o yox idi. Mən sadəcə atamın yoxluğundan istifadə edib, sanki bir casus kimi onun əşyalarına baxmaq, sirlərini öyrənmək niyyətində idim. Hər şey bax bu cür idi. Sonra əncirləri gördüm və oğurladım. O dəqiqə də peşman oldum. Və dünən bütün günü buna görə əzab çəkib ölmək istəmişəm, özümü mühakimə etmişəm. Bu günsə hər şey başqa cür idi. Keçirdiyim peşmançılığı axıra qədər hiss edirdim. Mən indi daha ayıq idim. Və özümdə atama qarşı izaholunmaz və böyük bir müqavimət duyurdum. Atam da elə bunu istəyirdi.

Mən bunları ona izah edə bilsəydim, o, məni başa düşərdi. Lakin uşaqlar böyüklərdən nə qədər ağıllı olsalar da, taleyin qarşısında acizdirlər.

Ağrıdan və inadkarlıqdan donaraq susurdum, onun nitqini yarımçıq kəsmirdim. Mən hər şeyin tərsinə getdiyinə, onun necə əzab çəkdiyinə, necə pərişan olduğuna, necə əbəs yerə məndə olan ən yaxşı cəhətləri dilə gətirməsinə, vicdan əzabı çəkə-çəkə, lakin qəribə bir bədxahlıqla baxırdım.

O, əncirin mənim oğurladığımı soruşanda, mən təkcə başımı yelləyərək razılığımı bildirdim. Bir də peşman olub olmadığımı öyrənmək istəyəndə də razılıq əlaməti olaraq ehmalca başıma tərpətdim. Bu cür böyük və ağıllı adam, necə də axmaq suallar verirdi. Necə mən peşman olmaya bilərdim axı?! Məgər mənə bütün bunların necə əzab verdiyini, necə ürəyimin parçalandığını görmürdü? Bəyəm bu əməlimə görə - o əncirlərə görə sevinə bilərdim?

Yəqin ki uşaqlıq həyatım boyunca ilk dəfə idi ki, mən bir-birinə rəğbət bəsləyən, sevən iki insanın necə bir-birini anlamadığını, incitdiyini, bütün söhbətlərin, gətirilən dəlillərin, sübutların necə yeni əzablara, yeni xəyallara, yanlışlara gətirdiyini hiss etmiş, açıq-aydın görmüşdüm. Axı bu necə ola bilərdi! Hər necəsə, axırı olmuşdu! Bütün bu hadisə ümumilikdə ağılsızcasına, boş və mənasız idi. İstər ağla, istərsə gül! Amma hər şey məhz bu cür olmuşdu.

Bəsdir ta bu əhvalat haqqında danışdım! Bu hadisə günün qalan ikinci yarısı boyunca mənim çardaqdakı otaqda kilidli qapı arxasında keçirməyimlə sona yetdi. Qaranlıq və bomboş çardaqda toz basmış, içi kitablarla dolu qutu vardı. O kitabların əksəri heç də uşaqlar üçün nəzərdə tutulmamışdı. Damdakı kirəmitlərdən birini kənara çəkərək ordan çardağa düşən günəş işığında kitab oxuyurdum.

Kədərli bazar günü axşamında yatmazdan əvvəl atamla qısa söhbətimiz oldu. Bu söhbət bizi barışdırdı. Mən yatağıma uzananda, əfv olunduğuma tam əmin idim. O, məni mən onu bağışladığımdan daha da çox bağışlamışdı.

*1918-ci il. Bern*

**Rus dilindən tərcümə edən: Xanım Aydın**